## *Prezident İlham ƏLİYEV:*

# Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 20-də xalqa müraciətində Ağdam rayonunun yağı tapdağından xilas edilməsini noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın nəticəsi kimi dəyərləndirib. Dövlətimizin başçısı bunun, əslində, sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndin, həmçinin Ağdərə, Murovdağ, Zəngilan istiqamətlərində bir neçə strateji yüksəkliyin işğalçılardan təmizlənməsinin məntiqi sonluğu olduğunu bildirib. Bu ardıcıl qələbələr isə düşmənin ağ bayraq qaldırmasına və kapitulyasiya etməsinə gətirib çıxarıb.**




Ölkə rəhbəri demək olar ki, bütün çıxışlarında, müsahibələrində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin həm siyasi, həm də hərbi yollarla mümkünlüyünü bəyan edib. Azərbaycanın uzun illər ərzində bu məsələnin siyasi müstəvidə həllinə çalışıb. Ancaq, təəssüf ki, məhz Ermənistanın mövqeyinə görə bu münaqişə nəticəsiz qalıb. Təbii ki, belə bir vəziyyətə beynəlxalq birlik şahidlik edib.

Yeri gəlmişkən, dünya Ermənistanın 30 il ərzində vandal hərəkətlərinin, qeyri-insani əməllərinin dəfələrlə şahidi olub və belə hallarda indi haqdan-ədalətdən dəm vuran ölkələrin səsləri eşidilməyib. Ümumiyyətlə, nüfuzlu dövlətlər, beynəlxalq qurumlar tərəfindən erməni cəlladlarının azərbaycanlıları Qərbi Azərbaycanda, Dağlıq Qarabağda və ətraf bölgələrdəki dədə-baba yurdlarından didərgin salanda, Ermənistanın BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsinin heç birini yerinə yetirməyəndə, işğalçı ölkənin baş naziri Nikol Paşinyan qəsbkarlığa yönələn çıxışları ilə dəfələrlə sülh danışıqlarını pozanda, Dağlıq Qarabağda "düşmənin qarşısının alınması" mexanizminin təkmilləşdirilməsi məsələsinin müzakirəsini aparanda haqq səsləri ucaldılmayıb. Ermənistanın barbarlığına görə sanksiyalar tədbiq etmək təşəbbüsü göstərilməyib.

Prezident İlham Əliyev müsahibələrinin birində bu barədə ətraflı danışaraq, Küveytin beynəlxalq aləmdə tanınan ərazisi İraq tərəfindən işğal ediləndə, hərbi cinayətlər törədiləndə, etnik təmizləmə aparılanda qəsbkara qarşı sanksiyalar tətbiq edildiyini bildirib: "Ermənistana münasibətdə də bu cür sanksiyalar tətbiq edilməli idi. Mən əminəm ki, hətta bu sanksiyalardan biri tətbiq olunsa idi, münaqişə çoxdan həll edilərdi. Sadəcə, bu sanksiyaları tətbiq etmək üçün siyasi iradə və istək yox idi. Çox ehtimal ki, belə bir mövqeyə üstünlük verilirdi - təki vəziyyət daha da kəskinləşməsin, gəlin hər şeyi olduğu kimi saxlayaq".

Deməli, Ermənistan və onun havadarları tərəfindən uzun illər ərzində mövcud problem həllini tapmadı, ölkəmizin ədalətli tələbi yerinə yetirilmədi. Belə bir halda Azərbaycan öz qanuni hüququndan istifadə etməyə, münaqişəni hərbi yolla, BMT Nizamnaməsi tərəfindən bizə verilən özünümüdafiə prinsipi əsasında aradan qaldırmağa məcbur oldu. Nəticədə Böyük Qələbəmiz reallaşdı. Dövlətimizin başçısı xalqa müraciətində də bu məqamı xüsusi vurğulayıb: "Yəqin, Azərbaycan xalqı xatırlayır, son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir, beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, "kim gücüdür o da haqlıdır" prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox. Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq, əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi. O damğanı vurduq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik".

Azərbaycan Prezidenti İlham Əliyev Ağdamın yağı tapdağından xilas olunmasını tarixi hadisə kimi dəyərləndirib və işğal altındakı torpaqlarımızda yerləşən yaşayış sahələri arasında əhalinin sayına görə Ağdamın ən böyük rayon olduğunu, əvvəllər burada 143 min insan yaşadığını, hazırda isə sakinlərin sayının 204 minə çatdığını vurğulayıb. Dövlətimizin başçısı daha sonra deyib: "Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə – bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik. Mənim göstərişimlə Quzanlıda sosial obyektlər, infrastruktur və sənaye müəssisələri yaradılmışdır. İnsanlar üçün iş yerləri yaradıldı. Quzanlı təbii qazla təchiz edildi, orada bütün digər infrastruktur layihələri icra olundu, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir. Bütün bu obyektlərin açılışlarında mən şəxsən iştirak etmişəm. Onu da bildirməliyəm ki, son illər ərzində mənim göstərişimlə Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınmışdır və biz Ağdam rayonuna 93 min köçkünü yerləşdirə bildik. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır".

Ali Baş Komandan müraciətində indi Ağdam üçün yeni dövr başladığını diqqətə çatdıraraq, bu rayonda, eləcə də digər yaşayış sahələrində, infrastrukturun ermənilər tərəfindən tamamilə dağıdıldığını, salamat bir binanın belə saxlanılmadığını, yerüstü və yeraltı sərvətlərin talan olunduğunu, tarixi-dini abidələrin barbarcasına yerlə-yeksan edildiyini bildirib. Azərbaycan Prezidenti, eyni zamanda, xatırladıb: "Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində – bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar.

Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda, dediyim kimi, əhali baxımından ən böyük rayondur".

Azərbaycan Prezidenti xalqa müraciətində vurğuladığı kimi, əslində, bərpa işləri artıq başlanıb. Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, bununla bağlı Prezidentin ehtiyat fondundan ilkin olaraq 50 milyon manat ayrılıb. Bu işə gələn il də əlavə vəsait yönəldiləcəyi nəzərdə tutulub.

Dövlətimizin başçısı daha sonra Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunun çəkilişinə bir neçə şirkətin cəlb edilməsi, bununla da magistralın vaxt itirilmədən və qısa müddətdə gerçəkləməsi üçün müvafiq qurumlara tapşırıqlar verdiyini də diqqətə çatdırıb. Ölkə rəhbəri bununla bərabər, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyaların da işə salınmasının gələcəkdə bölgədə uzunmüddətli sülhə töhfə verəcəyinə əminliyini bildirib: "Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır".

Azərbaycan Prezidenti xalqa müraciətində Ağdamda, eləcə də işğal altında saxlanılan digər şəhər və qəsəbələrimizdə, kəndlərimizdə tarixi-mədəni irsimizin silinməsi, abidələrimizin erməniləşdirilməsi, məscidlərimizin dağıdılması, yeni xəritələrin tərtib edilməsi barədə ətraflı məlumat verib.

Ali Baş Komandan müraciətində Ağdamın azad olunması xəbərini xalqa böyük qürur hissi ilə çatdırdığını bildirərək, qeyd edib ki, bu rayonda, eləcə də işğaldan azad edilən digər yurd yerlərimizdə erməni vəhşiliyinin heç zaman unudulmayacağını, yaddaşlardan silinməyəcəyini, eyni zamanda, insanların tezliklə doğma torpaqlarına qayıdışı üçün bütün imkanların səfərbər ediləcəyini vurğulayıb: "Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq".

Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində mühüm qələbə qazanması, eyni zamanda, imzalanan üçtərəfli Bəyanatla Ermənistanın işğal etdiyi Kəlbəcər, Ağdam və Laçın rayonlarının da heç bir döyüş əməliyyatı aparılmadan Azərbaycana təhvil verilməsi, bununla da ərazi bütövlüyümüzün tamamilə bərpası tariximizə möhtəşəm uğur kimi həkk ediləcək. Bu qələbə, uğur isə dövlətimizin başçısının praqmatik, düşünülmüş və müdrik siyasətinin məntiqi nəticəsidir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***